# *Abass ALAVİ:* "Azərbaycanda Nüvə Təbabəti Mərkəzinin yaradılması ölkə vətəndaşlarına dövlət qayğısının bariz nümunəsidir"

Pozitron Emissiya Tomoqrafiya (PET) sistemi XX əsrin ən böyük uğurudur. Bu sistem bir çox ciddi xəstəliklərin müalicəsində faydalı olduğundan özümü çox xoşbəxt hiss edirəm. Azərbaycanda Nüvə Təbabəti Mərkəzinin yaradılması ölkə vətəndaşlarına dövlət qayğısının bariz nümunəsidir.

Bunu Filadelfiyanın Penn Medicine Universitetinin professoru, onkoloji xəstələrin müalicəsi üçün PET sistemini ilk dəfə insanlar üzərində tətbiq edən alim Abass Alavi jurnalistlərə müsahibəsində deyib.

"Mən Azərbaycanda özümü Vətənimdə olduğu kimi hiss edirəm. Buranın mühiti, musiqisi, insanları mənə doğma gəlir. Azərbaycanda olmağımdan çox məmnunam. Əslən Təbrizliyəm və uşaqlığım Bakı radiosuna qulaq asmaqla keçib", - deyə Abass Alavi bildirib.